28 may 2021-ci il 27

# Aydın Xan Əbilov: 50 illik yubiley təbriki

***Azərbaycan Respublikası Milli Məclisi Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva kulturoloq Aydın Xan Əbilovu 50 illik yubileyi münasibətilə təbrik edib***



*Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net - Milli Virtual-Elektron İnternet Kitabxanasının qurucusu Aydın Xan Əbilov ilə Mədəniyyət Komitəsində görüşüb, onu 50 illik yubileyi münasibətilə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.*

**Təbrikdə deyilir:**

"Hörmətli Aydın müəllim!

Sizi 50 illik yubileyiniz münasibətilə təbrik edir, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları diləyirəm!

Siz hələ tələbəlik illərindən fəal ictimai və yaradıcı fəaliyyətinizlə seçilmisiniz. Qurucusu olduğunuz Yeni Yazarlar və Sənətçilər Qurumunun xətti ilə onlarla yaddaqalan layihə gerçəkləşdirmiş, həmin layihələrin rəhbəri olmusunuz. Gənclər təşkilatları Milli Şurası Məclisinin və Milli QHT Forumu İdarə Heyətinin üzvüsünüz. AYB-nin İctimai Qurumlarla Əlaqə və Analitik İnformasiya Mərkəzinin rəhbəri, eləcə də, Xəzər Universitetində ədəbiyyat müəllimi kimi çalışmalarınız da yaddaqalan olub. Hazırda "Ədəbiyyat qəzeti"nin Ədəbi tənqid və publisistika şöbəsinin redaktorusunuz. 1996-cı ildən dövri mətbuatda ədəbi-bədii, elmi-kütləvi, analitik-kulturoloji, tərcümə və publisistik yazılarla ardıcıl çıxış edirsiniz. Müxtəlif media orqanlarında redaktor, baş redaktor, ekspert olaraq çalışmısınız.

"Kulturoloji - alternativ düşüncələr" (2006), "Dünyanın kulturoloji dərki" (2008) və başqa kitablarınız işıq üzü görüb.

Prezident təqaüdçüsü, Beynəlxalq Rəsul Rza Mükafatı laureatı, "İlin yazıçısı", "Media Açarı" mükafatlarına, bir sıra nüfuzlu ictimai qurumların fəxri fərman və diplomuna layiq görülmüsüz.

Türkiyə, Ukrayna, Gürcüstan, Moldova, Rusiya və başqa ölkələrdə, eləcə də respublikamızda keçirilən beynəlxalq gənclik və elmi konfransların iştirakçısı, məruzəçisi olmusunuz.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, ən xoş diləklərimi yetirirəm!".

Görüşdə çağdaş mədəniyyət, ədəbiyyat, kulturoloji proseslər və yeni media mövzusunda fikir mübadiləsi aparılıb.

Millət vəkili Qənirə Paşayeva Aydın Xan Əbilova təbrik məktubu və Qarabağ motivli xatirə hədiyyəsi təqdim edib.

Aydın Xan Əbilov səmimi görüş və təbrik üçün Komitə sədrinə təşəkkür edib.